**Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin**
**Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin**
**ƏSASNAMƏSİ**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin (bundan sonra - Nazirlik) aparatının struktur bölməsi olan Dayanıqlı inkişaf və sosial siyasət şöbəsi (bundan sonra - şöbə) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən (bundan sonra Gündəlik) irəli gələn dayanıqlı inkişaf məqsədləri və hədəflərinin həyata keçirilməsi məqsədilə yaradılmış Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin (bundan sonra Katiblik) funksiyasının həyata keçirilməsi, BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) və "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası (bundan sonra Konsepsiya) çərçivəsində BMT-nin ixtisaslaşmış qurumları ilə dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində işlərin təşkilini və tənzimlənməsini həyata keçirir, həmçinin ölkənin sosial vəziyyətinin təhlili əsasında sosial fəaliyyətin tənzimlənməsi yollarının, sosial inkişafının, onun əsas istiqamətlərinin müəyyənləşdirilməsi, habelə sosial siyasətin formalaşdırılmasında iştirak edir;

1.2. Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanununu və digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"ni, digər qanunvericilik aktlarını, Nazirliyin Kollegiya qərarlarını, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin (bundan sonra - nazir) əmr və sərəncamlarını (bundan sonra - təşkilati-sərəncamverici sənədlər) və bu Əsasnaməni rəhbər tutur.

1.3. Şöbə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən

Nazirliyin aparatının bölmələri, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki digər qurumlar (bundan sonra - Nazirliyin strukturları), təsisçisi olduğu, səhmlərinin saxlanması və ya idarə olunması Nazirliyə həvalə edilmiş hüquqi şəxslər, eləcə də mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Şöbənin fəaliyyət istiqamətləri

2.1. Şöbə aşağıdakı istiqamətlərdə fəaliyyət göstərir:

2.1.1. Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyətinin təmin edilməsi məqsədi ilə Katiblik funksiyasının həyata keçirilməsi və dayanıqlı inkişaf məqsədlərdən irəli gələn hədəflərin icrası ilə bağlı dövlət orqanlarının, təşkilatlarının və müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı təşkilati işlərin həyata keçirilməsini təmin edir;

2.1.2. 2030-cu ilədək Gündəlikdən irəli gələn tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsininin əlaqələndirilməsini təmin edir;

2.1.3. dayanıqlı inkişaf məqsədləri və hədəflərinə uyğun milli prioritetləri və onlara dair göstəricilərin müəyyən edilməsi ilə bağlı əlaqələndirmə işlərini təmin edir;

2.1.4. ölkədə sosial-iqtisadi və ekoloji sahələri əhatə edən dövlət proqramlarının, strategiyaların və digər bu kimi sənədlərin Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılması ilə bağlı əlaqələndirməni təmin edir;

2.1.5. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyətinin təmin edilməsi üçün aidiyyəti dövlət qurumları ilə, həmçinin Şuranın tərkibində formalaşdırılmış müvafiq işçi qrupları və digər tərəflərlə əlaqələndirmə işlərini təşkil edir;

2.1.6. Konsepsiyanın icrası ilə bağlı dövlət orqanlarının, təşkilatlarının və müəssisələrinin fəaliyyətini təşkil etmək və əlaqələndirmək məqsədi ilə yaradılmış Milli Fəaliyyət Qrupunun işinin əlaqələndirilməsini təşkil edir;

2.1.7. Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan arasında imzalanmış

BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədi üzrə BMT ilə əməkdaşlığın həyata keçirilməsi, mövcud əlaqələrin gücləndirilməsi və yeni əlaqələrin qurulması sahəsində tədbirləri hazırlayır və bu istiqamətdə aidiyyəti dövlət qurumları ilə əlaqələndirmə işlərini həyata keçirir;

2.1.8. ölkənin sosial inkişafı sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

2.1.9. ölkənin sosial inkişaf proqnozlarının hazırlanmasında iştirak edir;

2.1.10. aidiyyəti dövlət orqanları ilə birlikdə ölkənin sosial-iqtisadi inkişaf, o cümlədən sosial sahələrin inkişafı üzrə konsepsiyaların və dövlət proqramlarının hazırlanmasında iştirak edir;

2.1.11. iqtisadiyyatın sosial sahələrində dövlət siyasətinin və tənzimlənməsinin, bu sahələrin inkişafı üzrə təkliflərin və tədbirlərin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

2.1.12. ekologiya və ekoloji təhlükəsizlik sahələri üzrə siyasətin formalaşdırılmasında və həyata keçirilməsində iştirak edir;

2.1.13. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

## 3. Şöbənin vəzifələri

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, şöbənin vəzifələri aşağıdakılardır:

3.1.1. Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə dövlət orqanlarının, təşkilatlarının və müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsi məqsədilə Katiblik funksiyasının həyata keçirilməsini təmin etmək;

3.1.2. ölkədə sosial-iqtisadi və ekoloji sahələri əhatə edən dövlət proqramlarının, strategiyaların və digər bu kimi sənədlərin Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılması ilə bağlı əlaqələndirməni təşkil etmək;

3.1.3. Azərbaycan üçün müəyyən edilmiş Dayanıqlı İnkişaf Məqsədlərinin icrası üzrə hədəf və göstəricilərə dair görülmüş işlər barədə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna və Azərbaycan Respublikasının Prezidentinə

hesabat layihəsinin hazırlanmasını təşkil etmək;

3.1.4. dövlətin dayanıqlı iqtisadi, sosial və ekoloji inkişaf siyasətinin həyata keçirilməsinin təmin edilməsi ilə bağlı digər dövlət orqanları tərəfindən bu sahədə hazırlanmış qanunvericilik aktlarının layihələrinə rəy vermək;

3.1.5. dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi ilə bağlı maraqlı tərəflərin cəlb olunması və maarifləndirmə tədbirlərinin genişləndirilməsi ilə əlaqədar təbliğat-təşviqat tədbirlərinin keçirilməsində iştirak etmək;

3.1.6. dayanıqlı inkişaf üzrə icra vasitələrinin gücləndirilməsi və dayanıqlı inkişaf naminə qlobal tərəfdaşlığın genişləndirilməsi məqsədilə BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığı inkişaf etdirmək;

3.1.7. Konsepsiyanın həyata keçirilməsi üzrə müvafiq strategiyaların, dövlət proqramlarının, digər sənəd və tədbirlərin layihələrinə dair təkliflərin hazırlanmasında iştirak etmək və dövlət orqanlarının, təşkilatlarının və müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsini təşkil etmək;

3.1.8. Konsepsiyanın icrası ilə əlaqədar dövlət orqanları, təşkilatları və müəssisələri tərəfindən aparılan işlər barədə təqdim olunmuş məlumatların icmallaşdırılması və yekun hesabatın ildə bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidentinə, ildə iki dəfə iqtisadiyyat nazirinə təqdim olunmasını təşkil etmək;

3.1.9. Konsepsiyanın həyata keçirilməsi üzrə müvafiq strategiyaların, dövlət proqramlarının, digər sənəd və tədbirlərin layihələrinin hazırlanaraq müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması ilə bağlı əlaqələndirilməni təmin etmək;

3.1.10. BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədinin həyata keçirilməsi üçün zəruri tədbirlərin görülməsini və icra vəziyyətinə dair məlumatın ildə bir dəfədən az olmayaraq, zəruri hallarda tələb olunduqda və tam başa çatdıqdan sonra yekun hesabatın Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmasını təşkil etmək;

3.1.11. BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədi çərçivəsində üç istiqamətdə yaradılmış işçi qrupları üzrə illik müştərək iş planları

və onların icrası ilə bağlı təkliflər vermək;

3.1.12. ölkənin sosial inkişafının əsas istiqamətlərinin və bu sahələr üzrə prioritetlərin müəyyənləşdirilməsində iştirak etmək;

3.1.13. iqtisadiyyatın sosial sahələrində dövlət siyasətinin və tənzimlənməsinin hazırlanmasında və həyata keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.1.14. ölkənin sosial siyasətinin, o cümlədən sosial sahələrin inkişafına dövlət dəstəyi mexanizmlərinin layihələrini və minimal sosial standartları hazırlamaq və ya hazırlanmasında iştirak etmək;

3.1.15. əmək ehtiyatları və məşğulluq sahəsində əsas istiqamətlərin müəyyənləşdirməsində iştirak etmək;

3.1.16. ekologiya və ekoloji təhlükəsizlik sahələrində dövlət siyasətinin və tənzimlənməsinin hazırlanmasında və həyata keçirilməsində fəaliyyət istiqamətləri üzrə iştirak etmək;

3.1.17. bu Əsasnamə üzrə müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə beynəlxalq təşkilatlar tərəfindən keçirilən forumların, konfransların, sərgilərin, digər tədbirlərin işində iştirak etmək və bu kimi tədbirlərin ölkədə keçirilməsini təşkil etmək, bu sahədə digər dövlət orqanlarının işinin əlaqələndirilməsi üçün zəruri tədbirlər görmək;

3.1.18. bu Əsasnamə ilə müəyyən olunmuş səlahiyyətlərin həyata keçirilməsi ilə bağlı qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənədlərin layihələrini hazırlamaq, belə layihələrin hazırlanmasında, baxılmasında və təkmilləşdirilməsində iştirak etmək;

3.1.19. fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə, yerli və beynəlxalq təşkilatlardan daxil olan müraciətlərə və sorğulara qanunvericiliyə uyğun olaraq baxılmasını təmin etmək;

3.1.20. səlahiyyətləri çərçivəsində Nazirliyin inkişaf konsepsiyasının (strateji planının) həyata keçirilməsini təmin etmək;

3.1.21. şöbənin iş planını, fəaliyyəti ilə bağlı hesabatları dövrlər üzrə hazırlamaq;

3.1.22. şöbənin əməkdaşları tərəfindən fəaliyyət prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların, dövlət və kommersiya sirrinin qorunmasını təmin etmək;

3.1.23. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. Şöbənin hüquqları

4.1. Şöbənin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

4.1.1. fəaliyyət istiqamətləri üzrə Nazirliyin strukturları tərəfindən hazırlanmış qanunvericilik aktlarının, təşkilati-sərəncamverici sənəd layihələrinə dair təkliflər hazırlamaq;

4.1.2. 2030-cu ilədək Azərbaycan üçün əhəmiyyət kəsb edən, qlobal məqsəd və hədəflərə uyğun milli prioritetlərin və onlara dair göstəricilərin müəyyənləşdirilməsi ilə bağlı təkliflər vermək;

4.1.3. iqtisadi, sosial və ekoloji sahələrin dayanıqlı inkişafının təmin edilməsi üçün səmərəli milli icra mexanizminin formalaşdırılmasında iştirak etmək;

4.1.4. Nazirliyin fəaliyyət istiqamətləri üzrə sosial sahələri tənzimləyən qanunvericilik aktlarının, inkişaf planlarının, konsepsiyaların və proqramların layihələrinin hazırlanması prosesinə zərurət yarandıqda müstəqil ekspertlərin, mütəxəssislərin, məsləhətçi şirkətlərin, elmi təşkilatların cəlb edilməsi ilə bağlı Nazirliyin rəhbərliyi qarşısında məsələ qaldırmaq;

4.1.5. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təşkilatların təşkil etdiyi, respublikada və xaricdə keçirilən forumlarda, sərgilərdə, təqdimatlarda, konfranslarda, habelə digər bu kimi tədbirlərdə iştirak etmək;

4.1.6. Şöbənin fəaliyyət istiqamətləri üzrə iqtisadi-sosial və ekoloji sahələri tənzimləyən qanunvericilik aktlarının, inkişaf planlarının, konsepsiyaların və proqramların layihələrinin hazırlanmasına dair təkliflər hazırlamaq və zərurət yarandıqda müstəqil ekspertlərin, mütəxəssislərin, məsləhətçi şirkətlərin, elmi təşkilatların cəlb edilməsi ilə bağlı Nazirliyin rəhbərliyi qarşısında məsələ

qaldırmaq;

4.1.7. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər, ümumiləşdirmələr, monitorinqlər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq;

4.1.8. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının tərkibində formalaşdırılmış işçi qruplarına və Nazirliyin strukturlarına müvafiq sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;

4.1.9. Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi üçün bütün maraqlı tərəflərin cəlb edilməsi və mümkün resursların formalaşdırılması məqsədilə beynəlxalq təşkilatlar və donorlarla, o cümlədən dövlət qurumları ilə aparılan danışıqlarda habelə fəaliyyət dairəsinə aid edilmiş digər məsələlərlə bağlı Nazirliyi dövlət orqanları, beynəlxalq təşkilatlar, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və mənafelərini müdafiə etmək;

4.1.10. Dayanıqlı İnkişaf Məqsədləri, BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədinin və Konsepsiyanın icrası ilə əlaqədar yaradılmış işçi qrupların iclaslarının təşkili, müvafiq fəaliyyətə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Nazirliyi təmsil etmək, onların işində iştirak etmək;

4.1.11. fəaliyyət istiqamətlərinə uyğun xarici dövlətlərin təcrübəsini öyrənmək və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

4.1.12. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 5. Şöbənin fəaliyyətinin təşkili

5.1. Şöbənin strukturu və əməkdaşlarının sayı nazir tərəfindən müəyyən və təsdiq edilir. Şöbə bilavasitə nazirə tabedir və onun qarşısında hesabat verir.

Nazir tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla heç kəs şöbənin fəaliyyətinə müdaxilə edə bilməz. Şöbənin strukturuna Dayanıqlı inkişaf məsələləri sektoru və Sosial siyasət sektoru daxildir.

5.2. Şöbənin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (şöbə müdiri) rəhbərlik edir. Şöbə müdiri şöbəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.3. Şöbə müdirinin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavin(lər)i vardır. Şöbə müdirinin müavin(lər)i şöbə müdiri tərəfindən ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır. Şöbə müdiri olmadıqda, onun səlahiyyətlərini müəyyən edilmiş qaydada şöbə müdirinin müavini və ya nazir tərəfindən təyin olunmuş digər şəxs həyata keçirir.

5.4. Şöbənin digər əməkdaşları nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.5. Şöbə müdiri:

5.5.1. şöbənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. tabeliyində olan sektorlar və əməkdaşlar arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək, icra və xidmət intizamına riayət etmələrinə nəzarət edir;

5.5.3. şöbəyə həvalə olunmuş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri imzalayır, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə nəzarət edir;

5.5.4. şöbə üzrə Nazirliyin Kollegiyasında müzakirə olunmalı məsələləri müəyyən edir və bu barədə təkliflərini Nazirliyin rəhbərliyinə təqdim edir, şöbə tərəfindən bu Əsasnamənin 1.2-ci bəndində göstərilən qanunvericilik aktlarının və təşkilati-sərəncamverici sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

5.5.5. şöbənin əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi

tədbirləri görülməsi üçün Nazirliyin rəhbərliyinə təqdimatlar verir;

5.5.6. şöbənin vəzifələrini yerinə yetirmək üçün səlahiyyətləri daxilində Nazirliyin digər strukturlarından zəruri məlumat və sənədləri alır;

5.5.7. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.5.8. şöbədə kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.5.9. şöbəni təmsil edir.

5.6. Şöbənin əməkdaşları bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 6. Şöbənin strukturuna daxil olan sektorların vəzifələri

6.1. Dayanıqlı inkişaf məsələləri sektorunun vəzifələri aşağıdakılardır:

6.1.1. Azərbaycan Respublikasında Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə əlaqədar iqtisadi və sosial sahələr üzrə vəziyyəti təhlil etmək və müvafiq təkliflərin hazırlanmasında iştirak etmək;

6.1.2. Dayanıqlı İnkişaf Məqsədlərinin iqtisadi və sosial məsələlər üzrə dövlət orqanları, təşkilatları və müəssisələrinin nümayəndələrindən təşkil olunmuş İşçi Qruplarının fəaliyyətini əlaqələndirmək;

6.1.3. Azərbaycanda dayanıqlı inkişafının qiymətləndirilməsi üçün göstəricilər sisteminin hazırlanmasında iştirak etmək;

6.1.4. Dayanıqlı İnkişaf Məqsədləri üzrə ölkə prioritetlərə uyğun seçilmiş məqsəd, hədəf və göstəricilər üzrə illik yekun hesabatın hazırlanmasını təşkil etmək;

6.1.5. Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı qanun və digər dövlət orqanları tərəfindən bu sahədə hazırlanmış normativ-hüquqi aktların layihələrinə dair rəy hazırlamaq;

6.1.6. müxtəlif ölkələrin Dayanıqlı İnkişaf Məqsədləri üzrə təcrübələrinin təhlili və onların milli kontekstdə tətbiqi imkanlarına dair təkliflər hazırlamaq;

6.1.7. dayanıqlı inkişaf prioritetləri (ərzaq təhlükəsizliyi, gender, sənaye, infrastruktur, innovasiya və s ) barədə təkliflər hazırlamaq;

6.1.8. Dayanıqlı İnkişaf Məqsədləri üzrə aidiyyəti dövlət qurumlarından daxil olmuş məlumatların iqtisadi-sosial sahə üzrə qruplaşdırmaq və statistik bazanı formalaşdırmaq;

6.1.9. Konsepsiyanın həyata keçirilməsi üzrə iqtisadi, sosial və ekoloji sahələri əhatə edən strategiyaların, dövlət proqramlarının, digər sənəd və tədbirlərin layihələrinə dair təkliflərin hazırlanması və dövlət orqanlarının, təşkilatlarının və müəssisələrinin fəaliyyətini əlaqələndirməsində iştirak etmək;

6.1.10. Konsepsiyanın icrası ilə əlaqədar dövlət orqanları, təşkilatları və müəssisələri tərəfindən təqdim olunmuş məlumatların icmallaşdırılması və yekun hesabatın hazırlanmasında iştirak etmək;

6.1.11. BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədinin həyata keçirilməsi üçün zəruri tədbirlərin görülməsində və icra vəziyyətinə dair məlumatın ildə bir dəfədən az olmayaraq, zəruri hallarda tələb olunduqda və tam başa çatdıqdan sonra yekun hesabatın Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmasında iştirak etmək;

6.1.12. BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədi çərçivəsində iqtisadi, sosial və ekoloji istiqamətlər üzrə yaradılmış İşçi Qruplarının fəaliyyətini əlaqələndirmək, habelə müştərək iş planları və onların icrası ilə bağlı təkliflər vermək;

6.1.13. Respublika İnnovasiya müsabiqəsinin təşkili və zəruri əlaqələndirməni təmin etmək;

6.1.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair təkliflər hazırlamaq;

6.1.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

6.2. Sosial siyasət sektorunun vəzifələri aşağıdakılardır:

6.2.1. dövlət büdcəsinin formalaşdırılması üçün ölkənin sosial inkişafının proqnoz göstəricilərinin hazırlanmasında iştirak etmək;

6.2.2. ölkənin sosial siyasətinin, o cümlədən sosial sahələrin inkişafına

dövlət dəstəyi mexanizmlərinin layihələrini hazırlamaq və ya hazırlanmasında iştirak etmək;

6.2.3. sosial sahələr üzrə əsas istiqamətlərin və prioritetlərin müəyyənləşdirilməsində iştirak etmək;

6.2.4. ölkədə sosial vəziyyəti təhlil etmək, davamlı inkişafın qabaqcıl istiqamətləri barədə təkliflər hazırlamaq;

6.2.5. ölkədə insan resurslarının inkişafının qiymətləndirilməsi üçün göstəricilər sisteminin hazırlanmasında iştirak etmək;

6.2.6. sosial sahələrin inkişafına dövlət dəstəyi mexanizmlərinin və minimal sosial standartların hazırlanmasında iştirak etmək;

6.2.7. dövlətin sosial və ekoloji siyasətinin həyata keçirilməsinin təmin edilməsi ilə bağlı digər dövlət orqanları tərəfindən bu sahədə hazırlanmış qanunvericilik aktlarının layihələrinə rəy vermək;

6.2.8. ekologiya və ekoloji təhlükəsizlik üzrə siyasətin formalaşmasında iştirak etmək;

6.2.9. Azərbaycan Respublikasında Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə əlaqədar ətraf mühit məsələləri ilə bağlı vəziyyəti təhlil etmək və müvafiq təkliflərin hazırlanmasında iştirak etmək;

6.2.10. ekoloji vəziyyətlə bağlı dayanıqlı inkişaf məqsədlərinin icrasında nəzərdə tutulan tədbirlərin milli siyasətlərə, strategiyalara və planlaşdırmaya daxil edilməsi ilə bağlı təkliflər vermək;

6.2.11. müvafiq dövlət orqanları ilə birlikdə dayanıqlı inkişafın ekoloji və sosial istiqamətdə siyasətinin işlənib hazırlanmasında, həyata keçirilməsində və müvafiq sahələr üzrə prioritetlərin müəyyənləşdirilməsində iştirak etmək;

6.2.12. Dayanıqlı İnkişaf Məqsədləri üzrə aidiyyəti dövlət qurumlarından daxil olmuş məlumatların ekoloji sahə üzrə qruplaşdırmaq və statistik bazanı formalaşdırmaq;

6.2.13. Azərbaycanda dayanıqlı inkişafın qiymətləndirilməsi üçün göstəricilər sisteminin hazırlanmasında iştirak etmək;

6.2.14. fəaliyyət istiqamətlərinə uyğun olaraq sektor üzrə şöbənin iş

planına, görülmüş işlər haqqında dövrlər üzrə hesabatların layihələrinə və Nazirliyin Kollegiyasında müzakirə edilməli məsələlərə dair şöbə müdirinə təkliflər vermək;

6.2.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.